

**Şəlalə Adilqızı**

Dostum əlinə bir isti ütü götür
Enişli-yoxuşlu həyat yolumu ütülə,
onda bu yol düzələ bəlkə
Gedib çata bilmirəm sevgimə, məqsədimə
Düzəlmir ki, düzəlmir kələ-kötür yol
Qırışığın düzəlt düzəlsin bir yol
Sevgimin yolları gül-çiçəkli yox
Yaman iynəli tikanlı oldu
hər gecə yaxşı olar diləyiylə ya,
Ayılanda gördüyüm mənzərəyə ağlayaram
Nə olar düzəlt sevgimin yolun.
Həm sağın həm də ki solun,
Nahamar yollar edib məni yorğun.
Gözlərimdəki gülüş də solğun
Dostum axı xoşbəxt olmaq istəyirəm.
Sevənlər kimi yaşamaq istəyirəm.
Taleyim küsübsə onu mənimlə barışdır
Tez ehtiyacım olduğun ona çatdır.
İstəyirəm qaçım bu şəhərdən.
Qəm-kədər salıb məni əldən,
Necəsən soruşan yoxdu,
Halıma yanan yoxdu,
Bax o üzdən qaçardım amma,
Saf sevgim yolumu kəsir
Mənə Dayan, ayaq saxla deyir.
Ona görə qalmışam burda,
Payız küləyi ürəyim kimi əsir,
Qopmaqda olan payız yarpaqları tək
Bütün bədənim titrəyir
Dostum indi sən de,
Yorğun yolçu hara getsin?

## BU GÜN

Tez uyu balaca görmə olanı
Göyə ucalacaq qəm səsi bu gün
Bir ata tərk edir səni bu yurdda
Kəsilir bir ata nəfəsi bu gün.

Öldü yoxdu daha köçdü həyatdan
Kədərli bir ömrün başlayır bu gün
Yetim qalmaq oldu sənin qismətin
Həsrət gözlərini yaşlayır bur gün.

Qoy şirin röyalar aparsın səni
Telini mələklər darasın bu gün
Yat buludlar üstə ayılar kimi
Doğma ata ruhun arasın bu gün.